

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 may 2024-cü il №34 (2845) https://mod.gov.az Qiymıəti 30 qəpik

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar rəsmi tviter səhifəsində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə rəsmi instaqram hesabında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər





***Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Mehriban xanım Əliyeva 9 May - Qələbə Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 May - Qələbə Günü münasibətilə sosial şəbəkə hesabında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Faşizm üzərində Qələbənin 79-cu ildönümü münasibətilə bütün veteranlarımızı təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, Vətənimizə sülh və əmin-amanlıq arzulayıram!".

## Xalqımız Ulu Öndər Heydər Əliyevin parlaq xatirəsini böyük ehtiramla anır

*Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü tamam olur. Ulu Öndərin parlaq xatirəsi Bakıda, respublikamızın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, eləcə də xarici ölkələrdə dərin ehtiramla anılır.*

AZƏRTAC xəbər verir ki, bu gün səhər saatlarından başlayaraq müxtəlif idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri, hərbçilər, Qarabağ müharibəsinin veteranları, paytaxt sakinləri Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edir, ruhu qarşısında baş əyirlər. Məzar və abidə önünə təzə-tər güllər düzülür, əklillər qoyulur. Dahi şəxsiyyətin Vətən və xalq qarşısında misilsiz xidmətləri bir daha minnətdarlıq duyğuları ilə xatırlanır.

Müasir tariximizin bütöv bir dövrü Ulu Öndərin adı ilə bağlıdır. O, bütün ömrünü canından çox sevdiyi Azərbaycanın inkişafına həsr edib. Heydər Əliyev həyatda olmasa da, mənən xalqı ilə birlikdədir. Onun zəngin irsi, əbədiyaşar ideyaları yollarımızı işıqlandırır. Qarabağın azadlığa qovuşması, dövlət suverenliyimizin tam bərpası əsası Ulu Öndər tərəfindən qoyulmuş inkişaf strategiyasının məntiqi nəticəsidir.

Xalqımız Azərbaycanın qüdrətli, dünyada sayılıb-seçilən, qalib ölkəyə çevrilməsinə görə özünü Heydər Əliyevə borclu sanır. Fəxri xiyabanda yaşanan izdiham da Azərbaycan xalqının öz böyük oğluna vəfa borcunun ifadəsidir.

Ulu Öndərin müdrik siyasi kursunun nəticəsi olaraq ölkəmizdə tolerantlıq ənənələri də dirçəlib, yeni məna və məzmunla zənginləşib. Təsadüfi deyildi ki, Fəxri xiyabanı ziyarət etməyə gələnlər arasında müxtəlif millətlərin və dini konfessiyaların çoxsaylı nümayəndələrini də görmək olur.

Fəxri xiyabandakı izdiham bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar





***Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 79 il ötür.***

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman ehtiramla anılıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. Azərbaycan Prezidentinin 2024-cü il 2 may tarixli Sərəncamı ilə 1941-1945-ci illər müharibəsində iştirak etmiş şəxslərə 2000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Azərbaycan xalqı artıq dördüncü ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət nəhayət Zəfər çaldı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib







Mayın 10-da Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Fəxri xiyabanı ziyarət ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan xalqının Ümummilli Liderinin məzarı önünə gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı ziyarət olunub, üzərinə gül dəstələri qoyulub, ehtiram nümayiş etdirilib.

# Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad edilib





Mayın 9-da Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti Böyük Vətən müharibəsində faşizm üzərində Qələbə münasibətilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri qoyub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Bakı şəhərində keçirilən anım mərasimlərində, həmçinin Sovet İttifaqı qəhrəmanları Mehdi Hüseynzadə, Rixard Zorge, Qafur Məmmədovun abidələri və "Qardaşlıq Məzarlığı" da ziyarət olunub.

Bundan başqa, hərbi hissələrdə 9 May - Qələbə Günü münasibətilə tədbirlər keçirilib.

Tədbirlərdə Böyük Vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş xalqımızın igid oğullarının şücaətindən danışılıb, onların əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

# Ulu Öndərin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbirlər keçirildi

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirildi.

Qoşun növləri üzrə hərbi hissələrin bir qrup zabit, gizir, əsgər və matros heyəti iştirak edən tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra tədbir iştirakçıları Ulu Öndərin şərəfli həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmi izlədilər.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədovanın ssenari müəllifliyi ilə Dünya şöhrətli siyasi xadim, Əbədiyaşar Lider, Xilaskar Rəhbər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş ədəbi-bədii kompozisiya təqdim olundu. Mərkəzin solistləri Ulu Öndərin xatirəsinə musiqilər ifa etdilər.



**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin zabitləri, müharibə veteranları, Memarlıq və İnşaat Universitetinin tələbələri, kursantlar, ictimaiyyətin nümayəndələri və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan olundu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə həsr olunmuş qısametrajlı sənədli film təqdim olunduqdan sonra Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə çıxış etdi.

Muzeyin rəisi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının ictimai-siyasi həyatındakı rolundan söz açdı. Bildirdi ki, Heydər Əliyev müasir, qüdrətli Azərbaycanın, onun Silahlı Qüvvələrinin yaradıcısı olub. Qədirbilən insanlar, o cümlədən hərbi qulluqçular arasında həmişə dərin hörmət və ehtiramla anılır. "Müstəqilliyimizin ilk illərində Böyük Öndərin rəhbərliyi ilə Azərbaycan xaosdan azad olmağı bacardı. Xalqın tələbi ilə yenidən Azərbaycana rəhbərliyə başladıqdan sonra dövlət çevrilişi cəhdlərinə, müxtəlif manevrlərə baxmayaraq, Ulu Öndər cəsarət və qətiyyət nümayiş etdirərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı. Böyük iradə və gərgin zəhmət bahasına Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağa nail oldu və respublikamızın inkişafı üçün zəmin yaratdı".



Muzeyin rəisi çıxışında onu da qeyd etdi ki, 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər oldu. Yəni, o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi. O illərdə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, siyasi sistem möhkəmləndirildi və ölkəmizin uğurlu inkişafı üçün zəmin yaradıldı. Ulu Öndərin həyata keçirə bilmədiyi işləri bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ləyaqətlə davam etdirməkdədir.

Tarixi şəxsiyyətlərin böyüklüyü öz xalqlarının tarixində oynadıqları rolla, cəmiyyətin inkişafına göstərdikləri təsirin miqyası ilə ölçülür. Dünya səviyyəli dövlət adamlarından söhbət düşəndə istər-istəməz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və onun Azərbaycan naminə gördüyü möhtəşəm quruculuq işləri yada düşür.



Azərbaycanın xarici siyasətindən söz açan tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov qeyd etdi ki, Azərbaycan xalqı tarixi müstəqilliyə qədəm qoyduqdan sonra dövlətimizin rəhbərliyində təmsil olunanlar arasında Ulu Öndər Heydər Əliyev qədər xarici siyasəti mükəmməl bilən və idarə edən güclü şəxsiyyət olmayıb. "1994-cü il mayın 12-də Ermənistanla cəbhədə atəşkəs əldə etdi. Ordu quruculuğuna, dövlətimizin inkişafı naminə qətiyyətli addımlar atdı. Həmin ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu müqavilə ölkəmizin tərəqqisinə xidmət edən müqavilə idi. Növbəti illərdə "Bakı-Tbilisi-Ceyhan" neft, "Bakı-Novorassiyski" qaz kəmərləri kimi nəhəng layihələrin əsasını qoydu. Bu layihələr Azərbaycanın sürətli inkişafına zəmin yaratdı".

Vahid İsmayılov çıxışının sonunda bir daha qeyd etdi ki, Azərbaycan dövlətçiliyinin inkişafında böyük xidmətləri olmuş Dahi Rəhbər Heydər Əliyevin xatirəsini qədirbilən xalqımız həmişə ehtiramla yad edəcəkdir.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin xalqımızın tarixindəki mühüm rolundan danışdılar.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnıları ilə yekunlaşdı. Tədbirin sonunda solistlərə fəxri fərmanlar verildi, xatirə şəkilləri çəkildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Milli Qəhrəman İlqar Mirzəyevin büstünün açılışı olub



Mayın 8-də Xətai rayonunda Azərbaycan Ordusunun şəhid polkovniki, Milli Qəhrəman İlqar Mirzəyevin büstünün açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, büst şəhidin adını daşıyan Xətai rayonu, 98 saylı tam orta məktəbin qarşısında qoyulub.

Mərasimdə Dövlət Himni səsləndirildikdən sonra müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev çıxış edərək polkovnik İlqar Mirzəyevin şərəfli həyat yolundan, onun vətənpərvərliyindən, göstərdiyi şücaət və qəhrəmanlıqdan söz açıb. Bildirib ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq müqəddəs şəhidlik zirvəsinə ucalmış, gənc nəslə örnək nümunəsi, hərb tariximizin ləyaqətli siması, öz məğrurluğu, hünəri ilə adı tariximizə əbədi yazılan polkovnik İlqar Mirzəyevin xatirəsi hər bir azərbaycanlının qəlbində daim yaşayacaq.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə qeyd edib ki, bu gündən etibarən 98 saylı tam orta məktəbin həyatında yeni bir dönəm başlayır. Bu məktəbdə təhsil alanlar şagirdlərin, onların valideynlərinin, tədris aparan müəllimlərin üzərinə kifayət qədər məsuliyyətli və şərəfli bir vəzifə düşür. Bu gün Milli Qəhrəman İlqar Mirzəyevin, hər bir azərbaycanlının fəxri olan bütün şəhidlərimizin ruhları şaddır.

Şəhid valideynlərindən mayor Rüfət Əsgərovun atası, Xətai rayon Ağsaqqallar Şurasının sədri Mürvət Əsgərov, Vətən Müharibəsi Qəhrəmanı kapitan Ceyhun Həsənovun atası Aydın Həsənov, Sübhan Abdurahmanlının anası, Xətai rayon Şəhid Ailələri Müdafiə Cəmiyyətinin sədri Mehriban Abdurahmanlı çıxışlarında onlara göstərilən diqqət və qayğıya, övladlarının xatirəsinin daim uca tutulduğuna görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



Heydər Əliyev adına Hərbi İnstitutun rəis əvəzi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov şəhidin yüksək insani və peşəkar hərbçi keyfiyyətlərinə malik olduğunu vurğulayıb, İkinci Qarabağ müharibəsində qəhrəman əsgər və zabitlərimizin göstərdikləri şücaətdən söz açıb.

Şəhidin qardaşı Rafael Mirzəyev Milli Qəhrəmanla bağlı xatirələrini bölüşüb, onun şərəfli həyat və döyüş yolundan söz açıb. O, şəhid ailələrinə və döyüşlərdə yaralananlara göstərilən diqqət və qayğıya, o cümlədən qardaşının xatirəsinə göstərilən ehtirama görə dövlət rəhbərliyinə, qədirbilən xalqımıza təşəkkür edib.

Sonra 98 saylı məktəbin şagirdlərinin ifasında Milli Qəhrəmana, Vətənə həsr olunmuş şeirlər səslənib, ədəbi-bədii kompozisiya nümayiş olunub.

# HDQ-nin hərbi hissəsinin yaranması günü qeyd edildi



*Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsinin yaranmasının ildönümü münasibətilə tədbir keçirildi.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, şəhid ailələri və hərbi hissənin şəxsi heyəti iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan 1-ci dərəcəli kapitan Teymur Mürşüdov şəhid ailələrini və tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun və öz adından hərbi hissənin yaranmasının ildönümü münasibətilə hər kəsi təbrik etdi, şərəfli hərbi xidmətlərində onlara uğurlar arzuladı: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi, rəhbərliyi, xalqımızın birliyi, rəşadətli ordumuzun qüdrəti, peşəkar hərbçilərimizin şücaəti nəticəsində Vətən müharibəsində və ordumuzun həyata keçirdiyi digər döyüş əməliyyatlarında tarixi qələbəyə imza atdıq. Xüsusilə vurğulamaq istəyirəm ki, bu qələbəni xalqımıza, dövlətimizə, hər birimizə yaşadan məhz qəhrəman şəhidlərimiz oldular. Onlar Vətən torpaqlarını öz canlarından üstün tutaraq, illərin işğalına son qoyub, öz adlarını hərb tarixinə qızıl hərflərlə yazdırdılar. Onların xatirəsini hər zaman əziz tutmaq isə bizim borcumuzdur".

- Rəşadətli ordumuzun ötən il həyata keçirdiyi döyüş əməliyyatları zamanı hərbi hissəmizin şəxsi heyəti fədakarlıq və peşəkarlıq nümayiş etdirərək, qarşıya qoyulmuş döyüş tapşırığının öhdəsindən layiqincə gəldi. Düşməndən bir neçə strateji əhəmiyyətli yüksəklikləri və döyüş postlarını azad etdi. Hərbi Dəniz Qüvvələrinə xas olan qəhrəmanlıq nümunələrini təkrar etməklə, onların qoyduqları ənənələrə sadiq qalaraq, düşmənə sarsıdıcı zərbələr vurdu. Beləliklə, bu gün yeni yaradılmış hərbi hissəmizin ildönümü bizim üçün nə qədər kədərli, bir gün olsa da, bir o qədərdəqürurvericir. Çünki xidmət etdiyimiz və çiyin-çiyinə vuruşduğumuz döyüş yoldaşlarımız sıralarımızda yoxdur. Onlar qəlbimizdə əbədi yaşayırlar və yaşayacaqlar! Ürək ağrısı ilə qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması naminə bütün qoşun növlərində olduğu kimi, bizim hərbi hissəmizdə də şəhidlərimiz oldu. Lakin məğrur oğullarımız onların qanını yerdə qoymadılar. Şəhidlərimizin qisası alınaraq, düşmən tamamilə məhv edildi. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləri, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər bu şanlı tarixlə həmişə fəxr edəcəklər. Əziz şəhid ailələri, övladlarınızın qəhrəmanlığı, şücaəti, fədakarlığı və canları bahasına torpaqlarımızı düşmən işğalından azad etdik. Onların qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda dalğalanmaqdadır.

Ordumuzun qazandığı tarix Zəfər inkişaf edən Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edəcək mühüm amildir. Beləliklə, hər birinizi hərbi hissənizin ildönümü münasibətilə təbrik edir, şəhid ailələrinə səbir, döyüşdə yaralananlara şəfa və sizlərə müstəqil Azərbaycanın gələcək inkişafı naminə işlərinizdə və şərəfli hərbi xidmətinizdə uğurlar arzulayıram!

Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xaliq İbrahimov hərbi hissənin yaranmasındam danışaraq dedi ki, bu gün biz hərbi qulluqçuların həyatında ən əlamətdar günlərdən biridir. Böyük sevinc hissi ilə hərbi hissənin yaranmasının ildönümünü qeyd edirik. Hərbi hissə yarandığı gündən qarşısına qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmişdir.

- Qeyd etmək istəyirəm ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğu daim diqqət mərkəzində olmuşdur. Bu işdə ən böyük xidməti, şübhəsiz ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev göstərmişdir. Dahi şəxsiyyətin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycan Ordusu nizami, güclü bir ordu kimi formalaşmağa başladı və Vətənimizin müdafiəsində öz sözünü dedi. Belə ki, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ordumuzu regionun ən güclüsünə çevirdi. Silah arsenalımız tamamilə yenilændi. Şəxsi heyətimizin gücü, qüvvəsi, mənəvi-psixoloji hazırlıqları yüksəldi. Görülən işlər nəticəsində Vətən müharibəsində ordumuz tarixi Zəfər qazandı. Buna baxmayaraq yenə də ölkəmizdə ordu quruculuğu məsələsi daima diqqət mərkəzində saxlanılır. Azərbaycan Ordusunda yeni qoşun növləri və hərbi hissələr yaradılır. Hərbi hissəmiz, həmçinin respublikamızdan kənarda beynəlxalq səviyyəli, çoxmillətli təlimlərdə iştirak edərək, ordumuzu layiqincə təmsil etmişdi. Bunlara misal olaraq, qardaş Türkiyə Respublikasında keçirilən "EFES-2024" və "Amfibiya" təliminin əsas bazasında müşahidəçi qismində iştirak edən bir qrup hərbi qulluqçunu göstərmək olar. Bu gün fəxrlə deyə bilərik ki, hərbi hissəmiz Azərbaycan Ordusunda döyüş təcrübəsi olan hərbi hissələr arasında öz layiqli yerini tutmuşdur. Bu gün hərbi hissənin bütün hərbi qulluqçuları fəxarət hissi keçirirlər ki, onlar burada xidmət edirlər. Bir daha hərbi hissənin yaranma günü münasibətilə hər birinizi təbrik edir və xidmətinizdə uğurlar arzulayıram, - deyə zabit bildirdi.



Şəxsi heyət adından çıxış edən matros Rüfət Qarayev də hərbi hissələrinin yaranmasının ildönümü münasibətilə silahdaşlarını səmimi-qəlbdə təbrik etdi. "Dəniz hərb gücünü və dənizçi mədəniyyətini özündə ehtiva edən hərbçilərimiz bütün hazırlıqlarda, döyüş şəraitində üzərilərinə düşən missiyanı layiqincə yerinə yetirməyə hazırdırlar. Biz hərbi borcumuzu dərindən dərk edir və Vətənimizin müdafiəsi üçün şüurlu surətdə məsuliyyət daşıyırıq. Hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməklə, Vətənimizə hədsiz sədaqət, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına mütləq surətdə riayət edirik. Vətənimizin düşmənlərinə nifrət bəsləyib, Azərbaycan Respublikasının dövlət mənafeyini müdafiə etməyə daim hazır olmalıyıq. Biz matroslar təkcə döyüş və fiziki hazırlıqda deyil, hərbi hissənin ictimai-siyasi həyatındada fəal iştirak edirik".

- Biz Vətən uğrunda canından keçən igid Azərbaycan oğullarının yolunu mərdlik və şücaətlə davam etdirəcək, əcdadlarımızın bizə qoyub getdiyi bu Vətəni göz bəbəyimiz kimi qoruyacağıq. Doğma Vətənimizin müdafiəsi və ordumuzun daima qüdrətli olması üçün öz hərbi xidmətimizi vicdanla yerinə yetirəcəyik. Bizimlə çiyin-çiyinə xidmət edən şəhid olmuş silahdaşlarımızın döyüş yolunu şərəflə davam etdirəcək və onların əziz xatirəsini daim qəlbimizdə yaşadacağıq. Biz şəhidlərimizi heç vaxt unutmadıq və heç vaxt unutmayacağıq. Bizə bu qələbəni yaşadan və fəxarət hissini bəxş edən şəhidlərimizə Allahdan rəhmət, döyüşdə yaralananlara isə şəfa diləyirik. Bu övladları böyüdən ata və anaların qarşısında baş əyirik.

Şəhid matros Davud Qiyaslının atası Telman Qiyasov tədbir iştirakçılarını hərbi hissənin ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edərək, xidmətlərində uğurlar arzuladı. Dedi ki, hər bir azərbaycanlı öz Vətənini canından çox sevib və qorumalıdır. Lazım gələrsə, bu yolda canını belə qurban verməyə hər an hazır olmalıdır. Bizim balalarımız məhz belə də etdilər. Onlar əsl vətənpərvərlik nümunəsi göstərərək, doğma torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəldilər.

Şəhid atası onlara dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıdan danışaraq, Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi. Rəşadətli ordumuzun şanlı qələbəsindən, işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından təsəlli tapdıqlarını diqqətə çatdıraraq,vurğuladı ki, var olsun, Vətənimiz, var olsun, Azərbaycan Ordusu!

Tədbirdə hərbi xidmətdə fərqlənənlər fəxri fərman və qiymətli hədiyyələrlə təltif edildilər.

Hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi oldu.

Tədbir iştirakçılarına hərbi hissənin istismarında olan silah və texniki vasitələrdən ibarət sərgi təqdim edildi və şəxsi heyətin nümunəvi çıxışları izlənildi.

Sonda Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirdi.



**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbycan Ordusu"**

# Türkiyənin MMU-nun nümayəndə heyətinin ölkəmizə səfəri





*Türkiyə Respublikasının Milli Müdafiə Universitetin nümayəndə heyətinin ölkəmizə səfər ediblər.*

"Xarici tədris gəzintisi" çərçivəsində ölkəmizdə səfərdə olan türkiyəli qonaqlar Hərbi Dəniz Qüvvələrini ziyarət ediblər.

HDQ-nin qərargahında keçirilən görüşdə Türkiyə nümayəndə heyətinə HDQ-də icra edilən fəaliyyətlərlə bağlı brifinq təqdim edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Daha sonra türkiyəli nümayəndələr Milli Müdafiə Universitetinə gəliblər. Burada qonaqlara Universitetin yaranma tarixi, əsas fəaliyyət istiqaməti, təhsil prosesi barədə brifinq təqdim edilib.

Görüşdə, həmçinin hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

* * *

Tükiyəli qonaqlar səfər çərçivəsində Quru Qoşunlarını və Əlahiddə Ümumqoşun Ordunu ziyarət ediblər.

Müdafiə nazirinin müavini -



Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Görüşdə qardaş ölkə ilə hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, o cümlədən qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Türkiyə nümayəndə heyəti, həmçinin işğaldan azad edilmiş ərazilərimizi ziyarət edib və burada dislokasiya olunan hərbi hissələrdə olub.

Qonaqlara işğal dövründə Ermənistan silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında azad edilmiş ərazilərimizdə aparılan bərpa-yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

Komando və digər hərbi hissələri ziyarət edən türkiyəli nümayəndə heyəti hərbi qulluqçular üçün yaradılan şərait, eləcə də bölmələrimizin arsenalında olan döyüş texnikaları ilə tanış olublar.

Sonra hərbi qulluqçularla görüş keçirilib.

Əvvəlcə Ümummilli lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qonaqlar torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün təmin olunması uğrunda döyüşlərdə uğurla iştirak edən bölmələrin keçdiyi döyüş yolu haqqında geniş məlumatlandırılıb.

Daha sonra türkiyəli nümayəndələr Əlahiddə Ümumqoşun Ordunu ziyarət ediblər.

Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev Türkiyəli nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan və Türkiyə arasında hərbi təhsilin cari vəziyyəti müzakirə edilib, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür görüşlərin əhəmiyyəti xüsusi vurğulanıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**




# Hərbi qulluqçulara daimi mənzillərin verilməsi prosesi davam edir





"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli Fərmanının icrasının təmin edilməsi məqsədilə 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara (hərbi xidmətdə olan, ehtiyata buraxılmış hərbi qulluqçular və ya onların varislərinə) daimi mənzillərin verilməsi prosesi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 8-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qüsursuz xidmət etmiş bir qrup hərbi qulluqçuya növbəti daimi mənzillərin verilməsi ilə bağlı tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin müvafiq qurumlarının nümayəndələri, media mənsubları, xidmətdə və ehtiyatda olan hərbi qulluqçular və onların ailə üzvləri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin gündən-günə yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində görülən işlərin müsbət nəticələrindən danışıblar.

Bildirilib ki, 2023-cü il dekabrın 8-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Daimi mənzillərin verilməsi üzrə mənzil komissiyası" tərəfindən hərbi qulluqçuların ailə tərkibi, şəffaflıq və ədalətlilik, eləcə də növbəlik prinsipi nəzərə alınmaqla püşkatma mərasimi keçirilib. Seçim əsasında Abşeron rayonu, Bakının Sabunçu və Suraxanı rayonlarında ümumilikdə 473 mənzil xidmətdə olan və ehtiyata buraxılmış hərbi qulluqçular, eləcə də vəfat etmiş hərbi qulluqçuların varisləri arasında bölüşdürülüb.



Hərbi qulluqçular da öz növbələrində göstərilən hərtərəfli diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Ağır illərin fədakar bacıları

*Bəşəriyyətin ən qanlı-qadalı müharibəsi sayılan İkinci Dünya müharibəsində keçmiş sovetlər birliyinə daxil olan bütün xalqlar kimi azərbaycanlılar da fəal iştirak ediblər. Sovet Sosialist Respublikaları İttifaqının hərb tarixinə Böyük Vətən müharibəsi kimi daxil edilən bu ağır müharibədə faşizm üzərində qələbənin qazanılmasında respublikamızın əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşub.*

Doğma Azərbaycanımızın 700 minə yaxın mərd oğul və qızı 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbə qazanılmasında fəal iştirak edib. Onların 450 mini orden və medallarla təltif olunub. Azərbaycandan 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb.

Keçmiş müttəfiq respublikalar içərisində ümumi əhalisinin nisbətinə, əsgər sayına və döyüşən əsgərlərin təltif olunması faizinə görə Azərbaycan ən öncül sıralarda dayandı. Müharibə illərində azərbaycanlılardan ibarət 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçdi. Soydaşlarımızdan ibarət olan bu diviziyaların şəxsi heyətinin təxminən yarısı ağır döyüşlərdə qəhrəmanlıqla həlak oldu. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq, cəbhəyə yola salındı. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik və fədakarlıqlar göstərdilər. 416-cı diviziyanın Şimali Qafqazdan Berlinədək ağır və şanlı döyüş yolu keçməsi, diviziyanın əsgərlərinin Berlində qələbə bayrağı ucaldanların sırasında olması hər bir azərbaycanlını qürurlandırdı. Bu gün də biz o qürur tarixini yaşayaraq qeyd edirik...

1941-1945-ci illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçilirdilər. Onlar



Qəmzə Məmmədova

"Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı ilə qüvvələri səfərbər edərək, gecə-gündüz çalışdılar. Qələbənin qazanılmasına töhfələr verməyə səy göstərdilər.

Böyük qələbənin əldə edilməsində Azərbaycan nefti xüsusi rol oynadı. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 80 faizi Azərbaycanda hasil edilirdi.

Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı edirdi. Müharibə dövründə Azərbaycanda 130 növdə silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. 1941-1945-ci illərdə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətlərini, habelə arxa cəbhədəki fədakarlıqlarını heç vaxt unutmaq olmaz.

Arxa cəbhədə fədakarcasına çalışan Azərbaycanın mərd, qeyrətli, zəhmətkeş qızlarının sırasında Qəmzə və Sədəf Məmmədova bacıları da var idi.

Lənkəranın ən qədim yaşayış məskənlərindən biri, füsunkar təbiəti olan Seydəkəran kəndi indi inkişaf, çiçəklənmə dövrünü yaşayır. Hər tərəfdə bahar təranələri eşidilir. Bağ-bağçalar yaşıl libasını dəyişib. Yol boyu əkilmiş salxım söyüdlər, uca çinarlar, qollu-budaqlı palıd ağacları vüqarlı görkəmi ilə kəndə xüsusi gözəllik verir. Məqsədimiz Seydəkəran kəndində yaşayıb ərsəyə çatmış traktorçu bacılar - Qəmzə və Sədəf Seyidağa qızı Məmmədovalar haqqında məlumat əldə etmək idi.

Qəmzə Məmmədova 17 mart 1922-ci ildə anadan olub, 19 noyabr 2007-ci ildə vəfat edib. Sədəf Məmmədova 11 dekabr 1925-ci ildə həyata göz açıb, 20 yanvar 2009-cu ildə dünyasını dəyişib.

Traktorçu peşəsinə yiyələnən iki bacının vaxtilə birgə yaşadıqları evin həyət qapısını döydük. Qapını üzümüzə üç bacının yeganə qardaşı, yaşı 80-i haqlamış Kərbəlayi Qurban kişi açdı (artıq o, haqq dünyasına qovuşub). Səmimi söhbətdən sonra birbaşa mətləbə keçdik.

- Qurban kişi, necə oldu ki, bacılarınız Qəmzə və Sədəf müharibənin qanlı-qadalı illərində traktorçu peşəsinə yiyələndilər?

- Doğrusu, elə bu mənim üçün də maraqlı və qəribə idi, - deyə Qurban kişi sözünə davam etdi. "Atam müharibə illərində uzun müddət yataq xəstəsi oldu. Ağır xəstəlikdən sonra o dünyasını dəyişdi. Ailənin ağırlığı anam Xırdanın zərif çiyinləri üzərinə düşdü. Biz dörd uşaq idik. Mən, bacılarım Qəmzə, Sədəf və Kəsirə. Atam öləndə mən on yaşında idim. Anamız Xırda onu tanıyanların qəlbində zəhmətkeş insan, qayğıkeş ana, cəfakeş qadın kimi qalıb. Evdə anamın üzünü görmürdük. Səhər açılıb işə gedəndə biz yuxuda olardıq. İşdən gün batanda qayıdanda biz yenə də yuxuda olardıq. Anam dəhşətli müharibə illərini belə xatırlayırdı: "Müharibə təzə başlamışdı. Ayağımızda çarıq işə gedirdik. Gecələr biçin biçir, kişiləri əvəz edirdik. Gündüzlər xırman döyür, taxıl hazırlayıb dövlətə təhvil verirdik. Təsərrüfatı biz qadınlar idarə edirdik. Dolanışıq çətin, ağır idi. Dərsi buraxıb, hamı kimi, mən də kolxoza işləməyə getdim. O zamanlar hər bir iş əl ilə görülürdü. Maşın yox idi. Mən gah kotan sürür, gah çəltik əkir, gah da tərəvəz və yem daşıyırdım". Anam balalarının rahat yaşayışı üçün



Sədəf Məmmədova

özünü oda, közə vurub. Gecəni gündüzə qatıb elə hey işləyib. O, çətin günləri xatırladıqca kövrəlir, gözlərinin yaşını silib, gah mənə, gah da bacılarına baxıb dərindən ah çəkirdi. Anamın yaşı 57-ni ötmüşdü. Çox qoca görünürdü. Başındakı qara kələğayı ağarmış saçlarını tam gizlədə bilməmişdi. Ağ tüklər üz-gözündəki qırışlar, qollarındakı şişmiş damarlar ovqatını təlx etmişdi. Seyrək dişləri cavanlığını çövğuna bürümüş ahıllıqla yarışa girmişdi. Müharibə illərində bütün analar kimi, mənim anam da öz işində həmişə fədakar olub. Anamın timsalında bütün analar qəhrəmandırlar. Onlar dağ misallı, səbirli və dözümlü, mətin və əzmlidirlər. Analar hər cür qayğıya, ehtirama layiqdirlər. O danışardı ki, kolxozun idarə binası Hacıməmməd kişinin mülkündə yerləşirdi. "Rayondan, o cümlədən MTS-dən (Maşın Traktor Stansiyası) tez-tez kolxoza nümayəndələr gələrdi. Onların əksəriyyəti bizdə qonaq olurdular. MTS-in siyasi şöbəsinin rəisi Musarza Səfərov atamla yaxın dost idi. Bir gün MTS-in direktoru ilə Musarza Səfərov yenə bizə gəlmişdilər. Musarza ətirli çayı mələş armudu ilə içdi və məni o ki var təriflədi. Novruz bayramı olduğuna görə məndən bu meyvələrin necə saxlanması ilə maraqlandılar.

Anam dedi ki, mən hər il alma, armudu ağacdan dərib, səliqə ilə sandığa yığıb, ta Novruza qədər saxlayıram. MTS-in direktoru üzünü atama tutub dedi ki, Seyidağa kişi, müharibə gedir, vəziyyət ağırdır, dolanmaq çətindir. Bu qədər ailənin ağırlığı tək sənin çiynindədir. Bilirəm ki, evində vəziyyət heç də ürəkaçan deyil. MTS-in nəzdində traktorçu kursu açmışıq. Maşallah, qızların da çox zirək qızlardır. İcazə versən, Qəmzə və Sədəfi traktorçu kursuna yazdırarıq... Beləcə bacılarım - Qəmzə və Sədəfin ağır illəri başladı"...

Qəmzə 1942-ci ildə Bakı şəhəri, Maştağa qəsəbəsində yerləşən məktəbdə mexanizator ixtisasına yiyələnir. Əmək fəaliyyətinə Veravul kəndindəki təsərrüfatda başlayır. Sonralar rayonun Vilvan, Havzava, Osakücə, Sinovli, Ləj və Şağlakücə kəndlərində torpaq işləri ilə məşğul olur. Çay sahələrini əkinə hazırlayır. 1946-cı ildə traktorçular briqadasının başçısı seçilir. İki çağırış rayon Sovetinin deputatı olur. Sədəf bacısı Qəmzənin yanında traktorçu köməkçisi işləyir. Şağlaser, Veravul, Ləj, Haftoni, Vilvan və digər kəndlərdə tərəvəz və çay sahələrinin salınmasında iştirak edir.

Sədəf xanım 1943-cü ildə Veravulda müəllim işləyən Hüseynağa ilə ailə həyatı qurur. Hüseynağa müharibədə qəhrəmancasına həlak olur. Sehranə və Bəxticamal adlı övladları Vətənə əmanət qalır. Sehranə müəllimə, Bəxticamal isə traktorçu peşəsinə sahiblənirlər.

Hər iki bacı gözəl oğul-uşaq sahibi, öz sənətlərinin mahir vurğunu, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı idilər.

Hər bir gənc illəri səmərəli, ayları faydalı, günləri mənalı keçirməlidir. Ömrü hədər getməyən illər hər kəsə şöhrət gətirir, adını dillər əzbəri edir. El-obasına şərəfli əməkləri ilə şöhrət gətirən Qəmzə və Sədəf bacıları kimi...

**Ehtiyatda olan polkovnik**
**Əvəz GƏNCİYEV**
**Bakı şəhəri**

*Gənc zabitlərimiz*

## "Hərbçi peşəsini daha üstün bildim"

Orduda ən gərəkli ixtisaslardan biri də psixoloqdur. Son illərdə ordumuzda bu sahəyə xüsusi önəm verilir. Psixoloqun üzərinə hər bir hərbi qulluqçunun fərdi keyfiyyətlərini öyrənmək kimi məsuliyyət düşür. O, bu barədə hər bir əsgər üçün ayrılmış kitabçada müvafiq qeydlər aparır. Hərbi qulluqçu haqqında doğru, dürüst məlumatlar toplayır və kitaba əlavə edir. Bu daha çox müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına aiddir.

Kapitan Məmmədağa Cahangirov ixtisasca filoloqdur. O, Azərbaycan Müəllimləri İnstitutunu bitirib. Ali təhsilini başa vurandan sonra hərbi xidmətə çağırılıb. Məmmədağa xidmətdə olanda öz gələcəyini zabit qismində görüb və hərbçi peşəsini daha üstün tutub. Beləliklə, Məmmədağa 2014-cü ilin oktyabrında "Zabit hazırlığı kursu"nu bitirərək "leytenant" hərbi rütbəsində xidmətə başlayıb. Onun hərbdə yiyələndiyi ixtisas "psixoloq" olub. Ordu sıralarına yenicə cəlb olunmuş gənc əsgərlərlə işləmək onun üçün ilk vaxtlarda çətin olsa da, sonrakı illərdə üzləşdiyi bütün çətinlikləri arxada qoya bilib.

Zabit hazırda gənc əsgərlər taborunda şəxsi heyətin psixoloji vəziyyətinin öyrənilməsi istiqamətində həvəslə çalışır. O deyir ki, hərbi xidmətə yeni gələn əsgərlər ilə fərdi söhbət aparır, onların mülki həyatda üzləşdikləri bütün çatışmazlıqları öyrənir, bu haqda hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi haqqında məlumat kitabçasında xüsusi qeydlər aparır. Hər bir hərbi qulluqçu haqqında bu cür məlumatların əldə edilib yazılmasının olduqca



böyük əhəmiyyəti var. Toplanmış olduğu hər hansı bir məlumat həmin hərbi qulluqçunun daim diqqətdə saxlanılmasını tələb edir. Bu cür mühüm məlumatlar onların gələcəkdə nöqsansız hərbi xidmətinin aparılmasına zəmin yaradır.

Kapitan Məmmədağa Cahangirov Quba rayonunda doğulub boya-başa çatıb. Hərbi xidmətinin ilk illərini düşmənlə təmas xəttində dağlıq ərazilərdə aparıb. Onun ordu sıralarında zabit kimi xidmət etməsinin əsas məqsədi də düşmən işğalında olan torpaqlarımızın azad edilməsinə öz töhfəsini verməsi olub. Belə ki, 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatları zamanı ilk döyüşlərə cəlb olunan döyüşçülərimizdəndir. Kəlbəcər istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Məmmədağa bölüyün şəxsi heyətini döyüşə ruhlandırmaqla yanaşı, həm də onlarla çiyin-çiyinə döyüşüb. Onun bu xidmətləri Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə qiymətləndirilib. "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Zabit Elşad Məmmədov da psixoloqun xidmətlərindən razıdır. O qeyd etdi ki, Məmmədağa üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələn bacarıqlı zabitlərdəndir. Onun apardığı psixoloji test nümunələri də bir daha bizə belə deməyə əsas verir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Tariximiz taleyimizdir



Müdafiə Nazirliyinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, hərbi hissə və birləşmələrdə şəxsi heyətin vətənpərvəlik ruhunun yüksəldilməsi və milli-mənəvi dəyərlərin təbliği üçün məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Bu məqsədlə mədəni-kütləvi tədbirlər, əlamətdar, tarixi bayram günləri, incəsənət, elm xadimləri ilə keçirilən görüşlər ənənə halını almışdır. Belə tədbirlər böyük ruh yüksəkliyi və maraqla qarşılanır.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin fəaliyyəti də vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə və milli-mənəvi dəyərlərimizin təbliğinə, qədim tariximizin əhatəli öyrənilməsinə xidmət edir. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrdə asudə vaxtın səmərəli təşkili üçün geniş fəaliyyət göstərilir. Mərkəzin təşəbbüsü ilə Xankəndidə, Şuşada, Zəngilanda, Laçında, Xocavənddə Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti Boran Əziz və Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin şöbəsi müdiri Möhübbət Rəsulovun iştirakı ilə görüşlər keçirilmişdir. Görüşlərdə qədim, zəngin tarixə malik xalqımızın dünyanın ən qədim xalqlarından olduğu qürurla bildirildi, Vətənimizin möhtəşəmliyindən, zənginliyindən, qədim dövlətçilik tarixindən ətraflı məlumatlar verildi, Azərbaycan xalqının dünya mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına dəyərli töhfələr verdiyi diqqətə çatdırdı. Çıxış edənlər xalqımızın azadlıq uğrunda mübarizə əzminin həmişə yüksək olduğunu vurğuladılar. XX yüzillikdə ölkəmizin yenidən müstəqilliyə qovuşmasını dövlətçilik tariximizdə əsaslı dönüş olduğunu qeyd edən dosent Boran Əzizli bildirdi: "1918-ci ildə Şərqdə ilk demokratik respublika olan dövlətimizin elan olunması böyük tarixi hadisə idi. Qısa müddətdə müstəqil dövlətin atributları, müxtəlif təsisatları və dövlət qurumları yaradıldı. İlk növbədə Vətənin müdafiəsi üçün ordu quruculuğuna start verildi. Qısa müddətdə ordu yaradıldı. 23 ay fəaliyyət göstərən Azərbaycan Demokratik Respublikası dünya dövlətləri tərəfindən tanındı. Ancaq bolşeviklərin işğalçılıq siyasəti nəticəsində Azərbaycan yenidən ilhaqa məruz qaldı SSRİ-nin tərkibinə daxil edildi və müstəqilliyə son qoyuldu. Bütün məhrumiyyətlərə baxmayaraq Azərbaycan xalqı öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizədən uzaq düşmədi. 70 il yaşayan sovet imperiyası çökməyə başladı. Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ilin oktyabrında bərpa edildi, özünü Azərbaycan Demokratik Cümhuriyyətinin varisi elan etdi.





Müstəqilliyin ilk illəri Vətənimiz, xalqımız, dövlətimiz üçün asan olmadı. Çox ciddi təxribatlarla ölkəmizi haqq yolundan döndərməyə çalışan qüvvələr müstəqilliyimiz üçün təhlükələr yaratdılar. Ermənistan silahlı birləşmələri əzəli və əbədi torpaqlarımız olan Qarabağda, sərhəd bölgələrində təxribatlar törətməyə başladı. Soydaşlarımız doğma yurd-yuvalarından didərgin düşdülər. Ölkəmizə qarşı elan olunmamış müharibə daha da genişləndi. Ermənistan ordu hissələri xalqımıza qarşı qətliamlar törətdilər, şəhər və kəndlərimizi işğal etdilər. Ölkəmiz, dövlətimiz və müstəqilliyimiz üçün böhranlı vəziyyət yarandı.

1993-cü ildə xalqın təkidli tələbi ilə xalqımızın, ölkəmizin, müstəqilliyimizin xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin həyatında tarixi dönüş oldu. Qısa müddətdə siyasi sabitlik yaradıldı. Ordu quruculuğuna Ulu Öndər tərəfindən böyük diqqət yetirildi. İqtisadi-siyasi, hərbi sahələrdə islahatlar geniş vüsət aldı. Yeni quruculuq strategiyaları əsasında bütün sahələrdə tərəqqiyə, yüksəlişə nail olundu".

Azərbaycan xalqının Ümummilli Liderinin ordu quruculuğuna verdiyi töhfələrdən danışan Möhübbət Rəsulov onun ordu quruculuğuna göstərdiyi diqqət və qayğısının 1994-cü ildə Füzuli istiqamətində keçirilən əməliyyat zamanı bəhrəsini verdiyini dedi: "Kənd və qəsəbələrimiz azad edildi. 1994-cü il mayın 12-də atəşkəs müqaviləsi imzalandı. Bundan sonra ölkəmizdə daha geniş iqtisadi layihələr həyata keçirilməyə başlandı. Dünya dövlətləri ilə yeni neft kontraktı - "Əsrin müqaviləsi" bağlandı. Bununla da ölkəmiz iqtisadi qüdrətinin artırılmasına nail oldu. Tarixi şəxsiyyətin təşəbbüsü ilə tarixi "İpək yolu" bərpa edildi. Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul edilməsi də Ulu Öndərin əvəzsiz xidmətlərindən biri kimi qiymətləndirilir. O, Qarabağın tarixi Azərbaycan torpağı olduğunu iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə, təşkilatlarda qətiyyətlə bildirirdi və bunu tarixi faktlarla sübut edirdi. Həmişə çalışırdı ki, xalqın, dövlətin böyük problemi olan Qarabağ gələcək nəsillərə qalmasın.

Xalqına, Vətəninə misilsiz xidmətlər göstərmiş, müasir Azərbaycan dövlətinin və ordusunun qurucusu, memarı olan böyük tarixi şəxsiyyət dünya siyasətçilərinin nəhəng simalarından idi.

Bu böyük dühanın siyasi kursu onun layiqli varisi müdrik dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən xalqımızın dəstəyi ilə uğurla davam etdirilir.



2003-cü ildə xalqın yüksək dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev keçən müddət ərzində xalqın ona göstərdiyi böyük etimadı doğrultdu, Azərbaycan Ordusu müasir dövrün tələbləri səviyyəsində daha da möhkəmləndirildi, ən müasir silah və texnika ilə təchiz olundu. Ordumuz regionun ən güclü, qüdrətli ordusuna çevrildi. Vətən müharibəsində tarixi Zəfər qazandı. Bu gün Azərbaycan Ordusu Vətənimizi, torpaqlarımızı daha böyük Vətən sevgisi və fədakarlıqla qoruyur".

Sonra hərbi qulluqçuları maraqlandıran suallara ətraflı cavablar verildi. "Əsgərə məktub" layihəsi çərçivəsində müxtəlif bölgələrdən əsgərlərə ünvanlanan məktublar Vətən müdafiəçilərində xoş ovqat yaratdı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Pentaqon ABŞ-ın İsrailə hava bombası tədarükünü dayandırdığını təsdiqləyib



ABŞ Qəzza zolağında Rəfahdakı vəziyyətlə əlaqədar İsrailə ümumilikdə 3,5 min hava bombasının tədarükünü dayandırıb.

Bu barədə Pentaqonun sözçüsü Patrik Rayder bildirib.

Onun sözlərinə görə, ABŞ bu təchizatlarla bundan sonra nə edəcəyi ilə bağlı hələ qərar verməyib.

ABŞ Prezidenti Cozef Bayden mayın 8-də CNN telekanalına müsahibəsində deyib ki, Rəfah şəhərində böyük hərbi əməliyyat keçiriləcəyi təqdirdə, ABŞ İsrailə silah tədarükünü dayandıracaq.

Qeyd edək ki, Rəfahda Qəzzanın digər şəhərlərini tərk etməyə məcbur olan çoxlu sayda fələstinli məskunlaşıb. İsrail tərəfinin məlumatına görə, HƏMAS qruplaşmasının döyüş hissələri Rəfahda cəmləşib.

### Netanyahu: HƏMAS-ın 24 batalyonundan 20-si məhv edilib



İsrail ordusu Fələstinin radikal HƏMAS hərəkatının 20 batalyonunu məhv edib.

Bu sözləri Amerikanın "Merit Street Media" telekanalına müsahibəsində İsrailin Baş naziri Benyamin Netanyahu deyib.

"HƏMAS"ın 24 batalyonundan 20-ni məhv edə bildik. Rəfaha daxil olmaq istəyirik, çünki orada daha dörd batalyon var", - deyə Baş nazir qeyd edib.

Eyni zamanda, Netanyahu İsrailin Rəfah əməliyyatı zamanı çox güclü müqavimətlə üzləşəcəyini etiraf edib, lakin İsrail hərbçilərinin bunun öhdəsindən gələcəyinə əmin olduğunu bildirib.

### Moskvada hərbi parad keçirilib



Moskvanın Qırmızı Meydanında faşizm üzərində Qələbənin 79-cu ildönümü münasibətilə hərbi parad keçirilib.

Paradda 9 mindən çox insan, 70-dən çox hərbi texnika iştirak edib. Piyada kolonnanın tərkibinə qoşun növləri və hərbi ixtisas üzrə alaylar, batalyonlar və rotalar, Suvorov, Naximov, kadet və musiqi məktəblərinin, gənclər ordusunun üzvləri, qadın hərbi qulluqçuları, kazaklar və birləşmiş hərbi orkestr daxildir. Parada Rusiya Quru Qoşunlarının Baş Komandanı, ordu generalı Oleq Salyukov rəhbərlik edib. Paradı Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqu qəbul edib.

Qırmızı Meydanın qarşısındakı tribunada Rusiya Prezidenti Vladimir Putin, səkkiz ölkənin, o cümlədən Belarus, Qırğızıstan, Qazaxıstan, Tacikistan, Türkmənistan, Laos, Qvineya-Bisau və Kuba liderləri, habelə müharibə veteranları yer alıblar.

### Rusiyanın Londondakı hərbi attaşesi ölkədən çıxarılıb



Rusiyanın Londondakı hərbi attaşesi Böyük Britaniyadan çıxarılıb.

Britaniya müdafiə naziri Qrant Şaps bu haqda özünün "X" sosial şəbəkəsində məlumat verib.

Britaniya daxili işlər naziri Ceyms Klverli isə parlamentdə çıxışı zamanı bildirib ki, Rusiya diplomatik vizalarının müddəti məhdudlaşdırılacaq. "Biz Böyük Britaniyadakı Rusiyaya məxsus bir sıra mülklərdən, o cümlədən Şərqi Susseksdə "Seacoks Heath" evindən və kəşfiyyat məqsədləri üçün istifadə edildiyinə inandığımız Rusiya səfirliyinin Highgeytdəki ticarət və müdafiə bölməsindən diplomatik binaların statusunu ləğv edəcəyik",- deyə nazir bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

## Ümummilli Liderin anadan olmasının 101-ci ildönümünə həsr olunan üzgüçülük yarışı keçirilib





Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda böyük tarixi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş idmanın üzgüçülük növü üzrə yarış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, turnirin açılış mərasimində Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Turnirdə hərbi institutun və Fövqəladə Hallar Nazirliyinin kursantları ilə yanaşı, Azərbaycan Dövlət Dəniz Akademiyasının, Milli Aviasiya Akademiyasının, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələri də iştirak ediblər.

İki gün davam edən yarışda iştirakçılar sualtı, sərbəst və brass üsulları ilə üzmə üsulları üzrə güclərini sınayıblar.

Yarışın nəticələrinə görə birinci yerə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, ikinci yerə Heydər Əliyev adına Hərbi İnstitutun, üçüncü yerə isə Azərbaycan Dövlət Dəniz Akademiyasının komandası layiq görülüb.

Sonda qaliblər mükafatlandırılıb.

### *Fiziki hazırlıq*

## “Qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən asanlıqla gəlməyə hazırıq”

"N" hərbi hissəsində günün nizam qaydalarına uyğun olaraq idman şəhərciyində keçirilən fiziki hazırlıq məşğələsinin gedişatı ilə tanış olduq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nicat Hacıyevin nəzarəti altında hərbi qulluqçularımız verilən bütün komandaları dəqiq və asanlıqla icra edirlər. Bu da onların fiziki cəhətdən yüksək səviyyədə olduqlarından xəbər verirdi.

Məşğələ başa çatdıqdan sonra hərbi qulluqçuların fikirlərini qələmə aldıq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nicat Hacıyev bildirdi ki, şəxsi heyətin fiziki cəhətdən güclü olması onların döyüş ruhunu və qələbəyə inamını daha da artırır. Məhz buna görə də Müdafiə Nazirliyinin rəhbərliyinin tapşırıqlarına əsasən, ordumuzda fiziki hazırlıq məşğələsi daim diqqət mərkəzində saxlanılır. Hərbi hissələrdə yeni idman şəhərcikləri salınır, müasir idman alətləri ilə təmin edilmiş trenajor zalları fəaliyyət göstərir. Fiziki hazırlıq şəxsi heyətin təlim və döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə hərbi təlimin mühüm və ayrılmaz hissəsidir. Fiziki hazırlığın əsas məqsədi döyüşçünün sağlamlığını, iradəsini, dözümlüyünü yüksəltmək, ağır silah və döyüş texnikasından asanlıqla istifadə etmək, döyüş fəaliyyətinin fiziki güc tələb edən ağırlığına, əsəb və psixi gərginliyinə, əlverişsiz faktorlara mətanətlə sinə gərməkdir. Bu məşğələ döyüşçülərimizi dərə-təpəli ərazidə piyada hərəkəti zamanı və sıçrama yürüşlərində, təbii və süni



maneələrin dəf olunmasında, düşmənlə üz-üzə gəldikdə əlbəyaxa döyüşdə məhv etməyə köməklik edir. Biz bu dediklərimizin hər birini Vətən müharibəsi zamanı gördük. Hərbçilərimiz fiziki cəhətdən güclü olduqları üçün uzaq məsafələri asanlıqla dəf edib, düşmənə göz dağı verdilər. Yorulmadan irəliləyən mətin oğullarımız cəmi 44 gün ərzində düşməni məhv etdilər. Onların gücü sayəsində torpaqlarımız işğaldan azad edildi və şəhidlərimizin qisası alındı".

İdmanın əlbəyaxa döyüş növü üzrə dəfələrlə müxtəlif yerlərə layiq görülən əsgər Anar Rzayev də fiziki hazırlığın əhəmiyyətindən danışdı: "İlk növbədə müntəzəm idmanla məşğul olmaq sağlamlıqla yanaşı, özünəinamın hissini də artırır. Buna görə də hər zaman idmana böyük marağım olub. Daim öz üzərimdə çalışır, məşq edərək təcrübəmi artırırdım. Xidmətə başlamazdan öncə isə məni düşündürən məsələlərdən biri də idmanla necə məşğul olmağım olub. Lakin ordu sıralarına çağırıldıqdan sonra burada vəziyyətin heç də mülki həyatdakı idman şəhərciklərindən seçilmədiyini gördüm. Məhz bu səbəbdən də peşəkar komandirlərimizin nəzarəti altında məşqlərimi daha inamla davam etdirirəm. Günün nizam qaydalarına uyğun olaraq hər gün fiziki hazırlıq məşqləri ilə məşğul oluruq. Bunun nəticəsidir ki, təlimlər zamanı verilən əmr və tapşırıqların öhdəsindən layiqincə gəlirəm".

- Mən də əsgər yoldaşım kimi uzun zaman idmanla məşğul olmuşam. Məhz bu səbəbdən də idman artıq mənim həyat tərzimə çevrilib və mən idmansız günümü təsəvvür edə bilmirəm. Sevinirəm ki, hərbi xidmətdə də idmanla məşğul olmağa davam edə bildim. Peşəkar komandirlərimizin rəhbərliyi ilə keçirilən fiziki hazırlıq məşğələsində bilmədiyimiz bir çox yeni idman hərəkətlərini öyrənirik. Bu da bizim daha güclü olmağımıza birbaşa təsir edir. Düzdür, ilk günlər məşğələ zamanı hər hansısa tapşırıqda çətinlik çəkən silahdaşlarımız olur. Lakin bu zaman ya biz, ya da təcrübəli komandir heyətimiz əllərindən gələni edirlər. Keçirilən məşğələ sayəsində fiziki cəhətdən güclü olduğumuz üçün əminliklə deyə bilərik ki, biz qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən asanlıqla gəlməyə hazırıq, - bu sözləri isə Masallı rayonundan hərbi xidmətə çağırılan əsgər Amal Teyyublu dedi.

Əsgər Tamerlan Muradov isə bildirdi ki, güclü olmağımız üçün komandirlərimiz əllərindən gələni əsirgəmirlər. "Hər bir idman fənnini uğurla həyata keçirə bilməmiz üçün bilik və bacarıqlarını səfərbər edirlər. Həmişə istəklərimizi nəzərə alırlar. Komandirlərimizin sayəsində fiziki imkanlarımız, idmana olan həvəsimiz gündən-günə daha da artır. Hərbi xidməti başa vurduqdan sonra da idmanla məşğul olmağa davam edəcəyəm".

Əsgərlərdən Şamxal Hüseynov, Kamran Məmmədov, Kənan Abdullayev və digərləri söhbət zamanı xidmətlərindən, idmana olan sevgilərindən, Müdafiə Nazirliyinin rəhbərliyinin tapşırıqlarına əsasən, hərbi hissələrində fiziki hazırlıqların artırılması üçün yüksək şəraitin yaradılmasından, idmanla həvəslə və yorulmadan məşğul olmalarından, Vətənə layiqli xidmət etməyi özlərinə övladlıq borcu bilmələrindən və bir çox digər mövzulardan söhbət etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın üç güləşçisi “Paris-2024”ə lisenziya əldə edib



Azərbaycanın daha bir yunan-Roma güləşçisi "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya əldə edib.

Sabah Şəraiti (130 kq) Türkiyənin İstanbul şəhərində keçirilən Dünya Olimpiya Təsnifat turnirində bu hüquqa sahib çıxıb.

O, yarımfinalda belaruslu Pavel Qlinçuka sonuncu xal prinsipinə əsasən (1:1) qalib gələrək Olimpiya lisenziyası qazanıb.

Daha öncə Murad Məmmədov (60 kq) və Rafiq Hüseynov (60 kq) Olimpiadada iştirak hüququ qazanıblar.

Bununla da Azərbaycanın "Paris-2024"ə əldə etdiyi lisenziyaların sayı 23-ə çatıb.

## Azərbaycanın kişi boksçuları lisenziya turnirinə Tailandda hazırlaşacaqlar



Kişi boksçulardan ibarət Azərbaycan millisi təlim-məşq toplanışını Tailandın paytaxtı Banqkokda davam etdirəcək.

Baş məşqçi Pedro Roke və böyük məşqçi Nəriman Abdullayevin rəhbərliyi altında yığmanın 4 üzvü sözügedən şəhərə yollanıb.

Hazırlıqda Şamil Əsgərov (57 kq), Malik Həsənov (63,5 kq), Sərxan Əliyev (71 kq) və Alfonso Dominqes (92 kq) iştirak edəcəklər. Mayın 10-da başlayacaq toplanış ayın 21-də yekunlaşacaq.

Toplanış II Dünya Olimpiya Təsnifat Turnirinə hazırlıq xarakteri daşıyır.

## Bilyardın “Pool-9” növü üzrə Azərbaycan çempionatı keçiriləcək



Bilyardın "Pool-9" növü üzrə Azərbaycan çempionatı keçiriləcək.

Yarışda ölkənin təcrübəli bilyardçıları mübarizə aparacaqlar.

Çempionatı izləmək istəyən azarkeşlər üçün bilet pulsuz olacaq.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyinin və Azərbaycan Bilyard Federasiyanın dəstəyi ilə keçiriləcək ölkə çempionatı mayın 11-dən 13-dək davam edəcək.

## Azərbaycanda körlinq idman bölməsi açılıb



Azərbaycanda körlinq idman bölməsinin açılışı olub.

Tədbir Heydər Əliyev adına İdman-Konsert Kompleksinin buz meydançasında baş tutub.

Tədbirdə kompleksin direktoru Fikrət Hüseynov, "Ocaq Sport" İdarə Heyətinin sədri Vəfa Bəkərova və Türkiyədən dəvət olunan mütəxəssis Ahmet Alperen Tunqa iştirak ediblər.

V.Bəkərova bu idman növünün inkişafı üçün əllərindən gələni edəcəklərini bildirib: "Körlinq idman növünü klubumuzun nəzdinə yeni daxil etmişik. Artıq bununla bağlı məşqçi də dəvət olunub. Bu idman sahəsi Qış Olimpiya Oyunlarının proqramına da daxildir".

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Əsgərli Turan Rəfi oğluna məxsus MN № 0065677 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Məmmədov Rafael İmran oğluna məxsus SQ № 0026974 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər İbrahimli Ağahüseyn Asif oğluna məxsus AD № 0063067 nömrəli və əsgər Qasımov Surət Məhərrəm oğluna məxsus AD № 0047968 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
mayor
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 267
Nüsxə 4650